# AZƏRBAYCAN RESPUBLİKASININ ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ ÜZRƏ DÖVLƏT AGENTLİYİ

## ƏMR

№ 19

Bakı şəhəri "28" 11 2018-ci il

**Fəaliyyət Planının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli 696 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019–2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 1.9.5-ci, 1.10.1-ci, 1.10.2-ci, 6.1-ci, 6.2-ci, 7.2.1-ci və 7.2.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 fevral tarixli 810 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"nin 5.5.7-ci yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli 696 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019–2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 1.9.5-ci, 1.10.1-ci, 1.10.2-ci, 6.1-ci, 6.2-ci, 7.2.1-ci və 7.2.2-ci bəndlərinin icrası ilə bağlı Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Fəaliyyət Planı təsdiq edilsin (əlavə olunur).

2. İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi:

2.1. bu Əmrin 1-ci hissəsi ilə təsdiq edilən Fəaliyyət Planının əsas icraçısı təyin edilsin və tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ümumiləşdirilmiş məlumatları mütəmadi olaraq Agentliyin sədr müavini N.Yusifbəyliyə və İqtisadiyyat və dövlət proqramları şöbəsinə təqdim etsin.

3. İqtisadiyyat və dövlət proqramları şöbəsi Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə iki dəfə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinə məlumat versin.

4. Ümumi işlər üzrə sektor bu əmrin Agentliyin aparatının struktur bölmələrinə və "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyətinə çatdırılmasını təmin etsin.

5. İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi Agentliyin internet səhifəsində bu əmrin surətinin yerləşdirilməsini təmin etsin.

6. Əmrin icrasına nəzarət Agentliyin sədr müavini N.Yusifbəyliyə həvalə edilsin.

Sədr Akim Bədəlov

Əsli ilə düzdür

**Əmri hazırladı:**

Hüquq və beynəlxalq əlaqələr şöbəsinin müdiri — 26.11.2018 — A.Süleymanov

**İmzalar:**

| | |
|---|---|
| Sədr müavini | N.Yusifbəyli |
| Sədr müavini | C.Məlikov |
| Aparat rəhbəri | İ.Əhmədov |

Alternativ və Bərpa Olunan Enerji
Mənbələri üzrə Dövlət Agentliyinin
28.11.18 tarixli 19 əmri ilə
təsdiq edilmişdir

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli 696 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019–2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 1.9.5-ci, 1.10.1-ci, 1.10.2-ci, 6.1-ci, 6.2-ci, 7.2.1-ci və 7.2.2-ci bəndlərinin icrası ilə bağlı

**Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin**
**Fəaliyyət Planı**

| № | Tədbirin sıra nömrəsi və adı | İcra müddəti | İcraçı şöbələr |
|---|---|---|---|
| 1. | 1.9.5. Alternativ və bərpa olunan enerji mənbələri üzrə informasiya bazasının yaradılmasında peyk təsvirlərindən istifadə edilməsi | 2019 - 2022 | **İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi,** ABOEM və ƏMQ şöbəsi, Texniki tənzimləmə şöbəsi, "Azalternativenerji" MMC |
| 2. | 1.10.1. Peyk təsvirləri əsasında alternativ enerji mənbələri üzrə potensialın müəyyənləşdirilməsi, eləcə də külək elektrik parkları və günəş elektrik stansiyalarının layihələndirilməsi | 2019 - 2022 | **ABOEM və ƏMQ şöbəsi,** İnvestisiyalar və layihələrin idarə olunması şöbəsi, Texniki tənzimləmə şöbəsi, "Azalternativenerji" MMC |
| 3. | 1.10.2. Azərbaycanın külək və günəş atlaslarının yaradılmasında, külək və günəş enerjisi istehsalının proqnozlaşdırılmasında peyk təsvirlərindən istifadə edilməsi | 2019 - 2022 | **İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi,** ABOEM və ƏMQ şöbəsi, Texniki tənzimləmə şöbəsi, "Azalternativenerji" MMC |
| 4. | 6.1. peyk təsvirlərindən istifadə ilə bağlı ehtiyacların müəyyən edilməsi | 2019 - 2020 | **İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi,** Texniki tənzimləmə şöbəsi, "Azalternativenerji" MMC |
| 5. | 6.2. Müəyyən edilmiş ehtiyaclar üzrə maddi-texniki təminat səviyyəsinin artırılması (lazımi kompüter və şəbəkə avadanlığının, proqram təminatının, ixtisaslaşmış və köməkçi texniki avadanlığın alınması) | 2019 - 2020 | **İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi,** Maliyyə və mühasibat şöbəsi, "Azalternativenerji" MMC |
| 6. | 7.2.1. Zərurət olduqda, ixtisaslaşmış CİS proqram təminatı üzrə təlimlərin təşkili | 2019 - 2022 | **İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi,** "Azalternativenerji" MMC |
| 7. | 7.2.2. Tematik təlimlərin keçirilməsi | 2019 - 2022 | **İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi,** ABOEM və ƏMQ şöbəsi, Texniki tənzimləmə şöbəsi, "Azalternativenerji" MMC |

Əsli ilə düzdür